AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Mərkəzi Bank valyuta bazarına müdaxilə edib

27 dəqiqə öncə




Mərkəzi Bank

Azərbaycan Mərkəzi Bankı (AMB) bu ilin avqust ayında valyuta bazarına alışyönümlü müdaxilə edib.

Qurumun məlumatına görə, tədiyə balansının cari əməliyyatlar hesabındakı profisit və maliyyə sektorundakı dedollarlaşma (əhalinin əmanətlərində xarici valyutanın payının azalması) prosesinin davam etməsi fonunda valyuta bazarında təklif tələbi üstələyib: **"Yaranmış bu şəraitdə Mərkəzi Bank cari ilin avqust ayında valyuta bazarından 1.5 milyard ABŞ dolları məbləğində alış həyata keçirib. Nəticədə ilin ötən dövrü ərzində Mərkəzi Bankın valyuta ehtiyatları 3.8 milyard ABŞ dolları və ya 33 faiz artaraq tarixi maksimuma – 15.3 milyard dollara yüksəlib".**

Müstəqil iqtisadçılar isə ölkədə dollara tələbatın azalmasını əsasən iqtisadi fəallığın zəifləməsi ilə izah edirlər. Hələlik iqtisadi artım 1 faiz civarında dəyişir. Müstəqil

iqtisadçılar bunu inkişaf saymırlar.

## Xatırlatma

Azərbaycanda 2017-ci ilin yazından ABŞ dollarının məzənnəsi dəyişmir. 1 dollar 1 manat 70 qəpiyə bərabərdir.

2015-ci ildə dalbadal baş verən devalvasiyalardan (manatın iki dəfə dəyər itirməsindən) sonra Mərkəzi Bank "üzən məzənnə" rejiminə keçildiyini bəyan etsə də, sonradan bu rejimdən faktiki imtina olunub.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur